# Ümumxalq qədirbilənliyinin əbədi ünvanı





❒ ***Azərbaycan xalqını böyük dövlət xadimi Heydər Əliyevin fiziki yoxluğundan 13 il ayırır. Bu illər ümummilli liderin nurlu ideyalarının və zəngin idarəçilik məktəbinin əbədiyaşarlığını dönə-dönə təsdiqləmişdir.***

Bütün bunlar Nəsimi rayon ictimaiyyətinin müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, azərbaycançılıq məfkurəsini dövlətçilik ideologiyasına çevirmiş ulu öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümünə həsr olunmuş anım mərasiminin aparıcı xəttini təşkil etdi. Azərbaycan Dövlət Musiqili Teatrında təşkil olunan xatirə toplantısında Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Asif Əsgərov ümummilli liderin nəsillərə örnək olan həyat yolu, dövlət idarəçiliyi məktəbinə çevrilən çoxcəhətli siyasi fəaliyyəti barədə məruzə ilə çıxış etdi.

Görkəmli dövlət xadiminin çoxillik ictimai-siyasi fəaliyyətinə və tükənməz idarəçilik irsinə nəzər salan rayon rəhbəri qeyd etdi ki, 35 illik bu epoxanın hər bir mərhələsi müasir tariximizin bütöv bir səhifəsini təşkil edir. Bu misilsiz dövlətçilik salnaməsinin hər sətri ulu öndərimiz Heydər Əliyevin dərin zəkasından qaynaqlanıb, qüdrətli əlləri ilə yazılıb. Ulu öndər zamanı qabaqlayan, onun fövqündə dayanan cahanşümul bir şəxsiyyətdir.

Məruzəçi daha sonra xatırlatdı ki, ölkəmiz bugünlərdə önəmli tarixi hadisənin – Azərbaycanın müstəqilliyinin bərpasının 25-ci ildönümünü təntənə ilə qeyd etdi. Dövlət müstəqilliyi xalqımızın tarixdə əldə etdiyi ən böyük nailiyyətdir və dahi şəxsiyyət Heydər Əliyevdən bizə müqəddəs yadigardır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər Azərbaycana siyasi müdriklik, sabitlik, milli birlik, tərəqqi müjdəsi gətirdi.

Ümummilli lider Heydər Əliyev "müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə ciddi dövlət quruculuğu işlərinə başladı. Vətənimizin ərazi bütövlüyünün qorunub saxlanılması, ölkənin parçalanma təhlükəsinin aradan qaldırılması böyük rəhbərin danılmaz xidmətidir. Heydər Əliyev fəlakət anında millətini xilas edən, ona itirdiyi böyüklüyünü, aliliyini yenidən qaytaran xilaskardır.

Mərasimdə daha sonra bildirildi ki, böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun nüvəsini, cövhərini milli dövlətçilik təlimi təşkil edir. Bu mənada, azərbaycançılıq Heydər Əliyev siyasi kursunun şah damarıdır, ana xəttidir. Bu strateji xətt daim inkişafda olan bir təlimdir və müstəqilliyimizin daha da möhkəmləndirilməsinə təkan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu böyük və sınaqlardan çıxmış dövlətçilik strategiyasını yaradıcı şəkildə və böyük səriştə ilə davam və inkişaf etdirir.

Azərbaycan bu gün beynəlxalq səviyyədə aktual ideya və təklifləri ilə regional lider statusundan qlobal geosiyasi çəkisi olan dövlətə çevrilmək istiqamətində inamlı addımlar atır. Məhz ulu öndər Heydər Əliyev siyasi kursuna əsaslanan, maksimum milli mənafeyə söykənən dövlət siyasəti hesabına ölkəmiz zəngin sərvətləri, əlverişli geostrateji mövqeyi, tükənməz mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir.

Sonra Nəsimi Rayon İcra Hakimiyyətinin Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı ilə birgə hazırladığı, ümummilli lider Heydər Əliyevin ölməz xatirəsinə rayon ictimaiyyətinin dərin ehtiramını ifadə edən ədəbi-musiqili kompozisiya təqdim olundu. Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə tanınmış sənətçilər uzun illər ulu öndərin ruhunu oxşamış mahnıları, onun xatirəsinə həsr olunmuş musiqiləri məharətlə ifa etdilər.

Mərasimdə səslənən fikirlər, sənət dili ilə ifadə olunan duyğu-düşüncələr bir daha göstərdi ki, bütün xalqımız kimi, nəsimililər də ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin nəhəngliyini illər keçdikcə daha dərindən anlayır və dahi rəhbərin xatirəsini böyük qədirbilənliklə yad edirlər.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***